# Anım Günü ilə bağlı tədbirlər keçirilir

## Naftalan



**27 Sentyabr Anım Günü ərəfəsində Naftalan ŞİH-in başçısı Vüqar Novruzov, Türkiyə Cümhuriyyətinin Gəncə şəhərindəki baş konsulu Recep Öztop, Avropa Azərbaycan Məktəbinin direktoru Francesco Banchini və digər şəxslər Vətən müharibəsinin ilk mülki şəhidləri olan Qurbanovlar ailəsini ziyarət etmişlər.**

Ziyarət zamanı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusunun əldə etdiyi şanlı və tarixi Qələbədən söz açılmış, şəhidlərimizin xatirəsinin hər zaman dərin ehtiramla yad edildiyi vurğulanmış, xalqımızın sarsılmaz birliyi və qətiyyətli mübarizəsi sayəsində qazanılmış dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün tarixi əhəmiyyətindən söz açılmışdır.

Şəhidlərin ailə üzvləri dövlətimiz tərəfindən onlara göstərilən hərtərəfli diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

Qeyd edək ki, Vətən müharibəsinin ilk günü düşmənin atdığı top mərmisinin Naftalanın Qaşaltı Qaraqoyunlu kənd sakini Elbrus Qurbanovun evinə düşməsi nəticəsində ailənin ikisi uşaq olmaqla beş üzvü faciəvi şəkildə şəhid olmuşdur.

## Qazax



**Hər il 27 Sentyabr Anım Günü Qazax rayonunda da silsilə tədbirlərlə qeyd olunur. Həmin tədbirlərə ilk olaraq Vətən müharibəsi şəhidlərinin məzarlarının ziyarət olunması ilə başlanılır.**

Rayon icra hakimiyyətinin başçısı, icra aparatının məsul şəxsləri, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Qazax rayon filialının, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının rayon şöbəsinin əməkdaşları şəhidlərin ailə üzvləri ilə birlikdə bu günlər 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəman oğullarımızın məzarlarını ziyarət etmişlər. Ziyarətçilər Yuxarı Salahlı, Ağköynək və Qarapapaq kəndlərində qəhrəman oğullarımızın məzarları başında şəhidlərimizin əziz xatirələrini ehtiramla yad etmişlər. Çıxış edənlər 44 günlük Vətən müharibəsində şanlı tarix yazan oğullarımızla, şəhidlərimizlə, qazilərimizlə hər kəsin fəxr etdiyini, qürur duyduğunu bildirmişlər.

❖ ❖ ❖

**Növbəti tədbir rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Bakı-Ələt-Qazax avtomobil yolunun Yuxarı Salahlı kəndi ərazisindən keçən hissəsində ağacəkmə aksiyası olmuşdur.**



Aksiyada RİH aparatının və 2 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, Bakı Dövlət Universiteti Qazax filialının, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin müəllim və tələbələri, rayon icra hakimiyyəti yanında Gənclərin Yerli Məşvərət Şurasının üzvləri, könüllülər iştirak etmişlər.

Aksiya iştirakçıları həmin gün 50 Eldar şamı, 400 tuya, 50 sərv ağacı olmaqla ümumilikdə 500 ağac əkmiş, yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 27 sentyabr (№207).- S.14.